# Gənc şairlər, fərqli üslublar və oxşar nəticələr



*Nərgiz CABBARLI*

*I yazı*

*"Və xoşbəxtliyə bircə hərif çatmır - o".*

**Ramil Əhməd**

Çingiz Əlioğlu Elşad Ərşadoğlunun "Eşqə doğru" kitabına yazdığı ön sözdə gənc şairin yaradıcılığına maraqlı təhlillər verməkdən başqa, həm də iki əhəmiyyətli məsələyə toxunur. Birincisi, şerimizdə şair portretinin görünməməsinə - bunu həmişə biz də qeyd edirik (əlbəttə ki, "az görünür" şəklində), ikincisi isə "bəzi müəlliflərin biləndən, ya da bilmədən ekzistensial çıxışı olan iki mövzuda - ölüm və sevgi mövzularında" çox yazmasına. Şairin düşüncəsinə görə, qələm sahibləri "bu şeirlərin asan şöhrət gətirdiyini hiss etdikləri üçün" həmin mövzuları "gərəyindən artıq istismar" edirlər.

Dəqiq tutulmuş bu iki məqam ötən bir neçə ili göz önünə gətirməyimizə vəsilə oldu və şeir mənzərəsində müəyyən dəyişikliklərin yarandığının fərqinə vardıq. Xüsusilə də şerə yeni gələn gənclərin yaradıcılığı hesabına olan dəyişikliklərin...

Düzü, nə qədər, - "gerçək şair portretləri azdır" - desək də, son illər öz portretlərini yaratmağa çalışan, vurduqları fərqli və maraqlı ştrixlərlə yadda qala bilən bir neçə gənc şair var. Bu "yeknəsəqlik bazarı"nda bunun özü də qələbədir. Tarixə yazılmaq qələbəsinin yanında hələ ki, kiçik görünən, amma yeknəsəqlikdə görünməmək təhlükəsini yenən bir qələbə.

O ki, qaldı ölüm və sevgi məsələsinə - problem bəşəri mövzuların aktuallığında deyil. Çünki təxəyyülü, ruhu sevgi və ölüm qədər silkələyən başqa bir güc çətin ki, tapıla... (hər halda, biri yaşam, digəri isə *son* düşüncəsini tətikləyir!) Və kimsəni poetik təxəyyülü hərəkətə keçirən bu "enerji seli"nə qapıldığı üçün qınamaq olmaz. Problem bir-birinə bənzər, bir-birini təkrar edən, hətta az qala məsələni eyni yozumda göstərən yanaşmalardadır. Və onu da deyək ki, artıq ölüm mövzusu 90-cı illərin sonları 2000-ci illərin əvvəllərindəki qədər aktual görünmür. Həmçinin yaradıcılıqlarda buna yanaşmanın, yozumun, təhlilin keyfiyyəti, istiqaməti dəyişib. Xüsusilə də gənclərin yazımızın predmeti olan yaradıcılığında (qorxu, heyrət və "sevgi"ni adiləşmə, "ümumbəşəri problem" təəssüratı əvəzləyib).

Ümumi şəkildə dəyərləndirmə aparmalı olsaq, gənclərdə "intellektual şeir" yazmaq meylinin artdığı, sərbəstin sərhədsizliyinə doğru yürüyüş, hətta şeirlə nəsr arasında sərhədlərin yaxınlaşdırılması, seçilən mövzularda, bəhs edilən problemlərdə və onlara yanaşma rakursunun müəyyənləşməsində milli, lokal müstəvidən qlobal müstəviyə adlama, problemlərə "mənim", "bizim" deyil, "dünyanın" olan nəsnə kimi baxma, onu görmək üçün çox-çox yüksəklərə qalxma, təhlilində bir çox elmi-fəlsəfi nəzəriyyələrə üz tutma, şerin "ruhsal, duyğusal orqanizmi"ndə elmi təbəqə yaratma və s. xüsusiyyətlər yadda qalır. Bu mətnlərdə (gənc olmalarına baxmayaraq) romantik rənglərə bürünmüş mücərrədlik deyil, *ruh* deyil, dəqiq ştrixləri olan, acı reallıqları göstərən, ağrıların çılpaq təsvirini verən və dərk edən *düşüncə, məntiq, ağıl* ön plana çıxır... Ruh da ordadır, təbii... Amma öndə deyil. Varlığı "gözə girmir", sadəcə, "gözə çarpır"... (Bəlkə də forma seçimində sərbəstliyə üz tutulmasının ilk səbəbini də elə bu *nöqtədə* axtarmaq lazımdır?!)

Bir qədər də konkret ştrixlərə enək. Amma əvvəlcə onu da deyək ki, əslində, haqqında danışacağımız imzalara üz tutmağımızın səbəbi onların yeni dərc olunan kitabları ilə bağlıdır. Çünki şairin əsl kimliyi (təbii ki, əgər varsa) kitablarda daha dolğun şəkildə görünür. O kitablar isə öz növbəsində ən yeni şeir və onun ümumi ştrixləri haqqında bizə söz demək imkanı yaradacaq.

Əvvəlcə Ramil Əhmədin "Zaman tuneli" kitabı haqqında söz salaq. Nə üçün əvvəlcə o? Çünki bu müəllif də, bu kitab da ümumilikdə ən yeni şerin əsas və aparıcı xətlərini - istər ruh etibarilə, istər eksperimentallıq cəhətdən, istərsə də mövzulara yanaşma baxımından - özündə əks etdirir. Kitabda ilk olaraq diqqəti çəkən, amma bir o qədər də təqdir etmədiyimiz bir xüsusiyyət var ki, bu da son illərin ədəbiyyatında tez-tez müşahidə olunan tendensiyanın təkrarlanmasıdır. Müəllif şeirlərinin təqdimatını da, yozumunu da, "qılafını" da özü şərh edir, oxucuya görməli, duymalı, anlamalı olduğu həqiqətləri əvvəlcədən hazır şəkildə təqdim edir. Onun qarşısına "itələyir": "Zaman tuneli" ayrı-ayrı məkanları, zamanları birləşdirir... Burada keçmiş və gələcək iç-içə keçirilib, ağ və qara arasındakı xətt pozulub. Hamı və hər şey sınıq güzgünün göstərdiyi kimi, yüzlərlə hissələrə bölünüb. Bu parçalanmağı yaratmaqla müəllif oxucunu sonsuzluğa səyahətə dəvət edir".

Əslində, bir qədər qarışıq, bir qədər də mücərrəd təsir bağışlayan bu cür şərhlər diqqəti çəkə bilir, amma ümumi oxu prosesini istiqamətəndirmir. Əksinə, bəlkə məqsəddən sapdırır da. Amma əsas olan bu deyil. Əsas olan odur ki, kitabda gənc şairin *obrazını, xarakterini, mənini* yaradan ştrixləri - yunan mifologiyasının təsirindən tutmuş Freyd nəzəriyyəsinə, müharibə faktından tutmuş atasızlığa, Somalidən tutmuş Qarabağa, Afrika uşaqlarından tutmuş bizim müharibə balalarına, parabüzəndən tutmuş çobanyastığı çiçəyinin "sevir-sevmir" kimi sadə fəlsəfəsinə... qədər həyatın, yaşamın və ona əqli-ruhi yanaşmanın müxtəlif rakurslardan təsvirini görmək olur. Bu mətnlərdə ruhla, duyğu ilə, hisslə bərabər *məntiq, informasiya* və onun tətbiqi, dəyərləndirilməsi, bir sözlə, *ağıl* işə keçir. Məsələləri öz yozumunda göstərir. Öz kəşfi olan çalarlarla təqdim edir. Bu mətnlərdə istər fakt, istər hadisə, istərsə də predmetə öz gözüylə baxma və öz düşüncəsi, öz rənglərindən (sözlərindən) istifadə ilə təsviretmə var. Hadisələrin (ənənənin), əşyaların (görünənin) arxa planına (görünməyən yanına), mahiyyətinə enmə istəyi, onlara yeni yozumda şərh vermə və yeni mənalandırma çabası var. Düzdür, bu çaba bütün yaradıcı insanlara məxsusdur. Lakin alınıb-alınmaması artıq istedad məsələsidir.

Məsələn, "Nikbinlik" şerinə nəzər salaq;

*Yolmayın,*
*Çobanyastığının günahsız ləçəklərini,*
*Yormayın eyni suallarla onu:*
*- Sevir, sevmir.*
*Cavabını bildiyiniz sualları*
*Başqasından soruşmayın...*
*Çiçəklər uşaqlar kimidir,*
*Yalan danışa bilməzlər.*
*Göndərməyin parabüzənləri*
*Sevdiyinizin arxasınca.*
*Düşünün,*




*Bəlkə də barmağınızın ucundakı böcək*
*Elə sizi aparmaq üçün gəlmiş...*

Yalnız daxili ritmin üzərində qərar tutan şerin adı "Nikbinlik" qoyulsa da, əslində, ümumi havasında kədər və ağrı var. Ənənəvi inama, ənənəvi düşüncəyə qarşı çıxma var. Sevgiyə şahidlik etməsi tələb olunan çobanyastığının ağrısını da, "yolunan saçları"nın sızıltısını da duymaq olur. "Əsl sevgiyə şahid gərəkməz" alt-inkarını da həmçinin. Bir yandan da yalan sevgilərə belə şahidlik etməli olan çiçəklərin "yalan danışa bilməmək" ağrısı gəlir. Hə... Bir də qarşı tərəfin - təsəllini "çiçəklərin saçını yolmaqda tapan" insanın ağrısını da bura əlavə edək... Bu qədər ağrının içində *nikbinlik?!* Açması elə bundadır...

Bu nümunəni nə üçün seçdim? İki istiqaməti - romantik ovqatla (təsvirlə) acı realizmi bir arada birləşdirdiyinə görə... Bu ən yeni şeirdə müşahidə olunan qəribə bir iç-içə keçmədir. Çünki ənənəvi faktın fərqli yozumunu verir. "Uzaqda olanın ardınca qaçmaqdansa, əlində olanı dəyərləndir" - realist mesajını göndərir. "Barmağın ucunda olan parabüzən" - toxunsan barmaq ucu dəyəcək qədər yaxın olan, amma dəyərləndirmədə yanlış prizmadan baxdığımız üçün görə bilmədiyimiz "parabüzən sevgi"ni simvoliza edir... Uzaqda olan, gözlədiyimiz xəyali - romantik sevgi ilə barmağımızın ucunda olan, amma görmədiyimiz real görüntünü bir araya gətirir...

Bu müəllifin öz xarakterik obrazları, daima üstünə yeridiyi mövzuları var. Xırda bir detalı götürərək obrazlaşdıra bilir. Hətta o obrazı "özününkü" səviyyəsinə qaldırmağı da bacarır... Əlbəttə ki, fərqli keyfiyyətlərini üzə çıxarmaq və bunu özünəməxsus ifadələrlə təsvir etməklə... Ən əsası isə məhz bu obrazlar vasitəsilə acı gerçəkliklə romantik əhval iç-içə keçirilmiş olur. Məsələn, eyni parabüzən bu dəfə başqa bir şerin qəhrəmanına çevrilir - ikinci dərəcəli olsa da:

*...Tək qalınca,*
*çəkilib bir küncə,*
*göndərər bütün parabüzənləri*
*atasının dalınca:*
*"Uç, uç, qarı nənə, mənə atamı gətir"...*

Bu dəfə ümidi, inamı, gözləntini ifadə edən parabüzən yenə də romantik dünyanın "qəhrəmanları" olan mələklər, ağappaq qanadlar, lələklərlə bir araya gətirilir, amma elə onlar kimi də "yerə çırpılır". Darmadağın edilir - reallığın təsiri, reallığın zərbəsi ilə.

*...Və bir gün...*
*Bir gün hürkər -*
*görəndə çiynindən çıxan*
*ağappaq, ağappaq lələkləri!*
*"Ata! Ata!" - qışqırar!*
*Qışqırar,*
*pərən salar çiynindəki mələkləri.*
*Atar özünü*
*lələklərinin ucundakı həsrətdən,*
*nə ölüsünü görən olar, nə dirisini.*
*Yer üzündə bir uşaq azalar,*
*göy üzündə bir mələk çoxalar...*

Ramilin şeirləri uşaqlıqda yaşanan acı reallıq kimidir. Tez və gözləmədiyin halda tanıdığın, bir andaca böyüməne səbəb olan *reallıq* kimi. Ağrı kimi... Belə bir şeyə bənzəyirlər. Bəlkə elə buna görə uşaqlar da, onların çox tez tanış olduqları ağrılar da çoxdur bu şeirlərdə... Bu mətnlərdə dünyaya doğulmamışdan, gerçəkliklə üzləşməmişdən əvvəl mövcud olan uşağa da rast gələ bilərsən

*(Uşaqlar,*
*bilməzsiniz olmadığınız evin səssizliyini...*
*Siz olmayan evlərin*
*sükutunun dərinliyindən*
*heç Məlikməmməd də çıxa bilməz.*
*Bilməzsiniz*
*sizə həsrət qalanların*
*evdə pişik saxlamasının ağrısını.*
*...O evlərin nağılında*
*nə işıq gələn tərəf var,*
*nə də it hürən...*
*O evlərin nağılında*
*ancaq kişi dodaqlarının işğalı altında*
*qalır bir qadının döşləri...),*

dünyaya gəlib onunla tanış olaraq ata həsrəti, müharibə dəhşəti, aclıq fəlakəti yaşayan uşaqlara da... "Müharibə uşağı"nın hissləri, duyğuları bu çılpaq təsvirlərin

içində az qala dərin-dərin nəfəs alır:

*Hava proqnozunda dedilər ki,*
*Somaliyə qar yağacaq...*
*Görəsən, Somalidəki uşaqların ürəyindən*
*qartopu oynamaq keçirmi?*

Məncə, reallıqla xəyalın iç-içə keçdiyi, reallığın xəyala, həqiqətin arzuya qalib gəldiyi bu mətnlərdə yetərincə görünür. Bu, onun (və bir çox gənc şairin) xarakterik xüsusiyyətidir.

Daha bir ştrix: bu uşaqların sadəcə, *uşaq* olmasıdır. Zəncimi, ağdərilimi, afrikalımı, qarabağlımı deyil, sadəcə uşaq. Bu şeirlərdə fərqli qütblər, fərqli dünyalar bir araya gətirilir - yaşanan ağrının eyniliyi ilə. Bir yanda "yol kənarında oturub xəyalları ilə oynayan afrikalı uşaq"ın obrazı boylanırsa, digər tərəfdə Qarabağlı uşaq görünür... Müharibə də, atasızlıq da, aclıq da, çılpaq uşaqlığa yağaraq onu donduran, öldürən qar da bu mətnlərdə qloballaşır. Böyüyür. Dünyanı tutur. "Mənim"likdən çıxır, dünyəviləşir. Bu da bir çox gəncləri birləşdirən xüsusiyyətlərdəndir.

Daha bir ştrix: Ramilin təqdimində ən adi, ən bəsit anlayışlar belə öz yeni, amma həqiqətəuyğun tərifini tapa bilir. Şair üçünsə bu, çox vacibdir:

*Sevgi inanmaqdı*
*ömrün sonuna qədər,*
*ömrün sonuna qədər*
*Amerikanı Hindistan bilməkdi....*

Onu fərqləndirən üslubudur. Qafiyə üzərində deyil, sərbəst şerin daxili ritmində qərar tuta bilməsidir. Vizual effektə əsaslanan eksperimentlərdə belə effektiv nəticə ala bilməsidir. Bir də adiyə adilik kimi yanaşmamasıdır. Hər adilikdə mövcud olan qeyri-adiliyi tapıb göstərməsidir. Yeknəsəqliyin özünə belə məna verməyi bacarmasıdır. Bu isə hadisənin və faktın mahiyyətinə, alt qatına enmə deməkdir:

*Zəngli saatın*
*səni hər səhər*
*işə, dərsə, görüşə*
*getməyin üçün oyandırdı.*
*Heç Günəşi qarşılamaq üçün*
*çaldımı zəngli saatın?*
*Günəşi görmək üçün oyandınmı?*

Bir də onun fərqi reallıqlara verdiyi dəqiq qiymətdədir. Bu, bir çox gənclərimizdə duyulmağa başlayan bir xüsusiyyət olsa da. Özü bunu adi və sıradan bir şey kimi dəyərləndirsə də, bu şeirlərdə deyilənlər daha çox *həqiqətdir*:

*Hamı bir az başqasıdır.*
*olmaq istədiyi, ola bilmədiyi başqası.*
*Mən bilirəm. Yalanmı? Siz də bilirsiniz.*

Bu da ən yeni şerin əsas və aparıcı xüsusiyyətlərindən biri kimi davamlı olaraq mətnlərdən boy verir. Bir qədər əvvəllər - yəni 2000-ci illərin əvvəllərində olduğu kimi ironiya ilə deyil, şişirdilərək deyil, olduğu kimi.

***

Gənclərin yaradıcılığının dəyərləndirilməsi üçün seçdiyim şairlər üslubu, yaradıcılıq istiqaməti cəhətdən fərqlidirlər. Məsələn, haqqında danışacağım növbəti şairlər - Elşad Ərşadoğlu ("Eşqə doğru" kitabı) və Anar Amin ("Adnalıdan Ağdabana") başqa yolla irəliləyirlər. Lakin onların da yaradıcılığı bənzər nəticələrə gəlmək üçün material verir.